# "TURAN TOVUZ" FUTBOL KLUBU
# HESABAT 2023/2024

# MÜNDƏRİCAT


ÖN SÖZ 3

İNFRASTRUKTUR LAYİHƏLƏRİ 4

AKADEMİYA 9

ƏSAS KOMANDA 19

İDARƏETMƏ 27

İCTİMAİYYƏT 30

# ÖN SÖZ



**Ehtiram Quliyev**

Hər bir sahədə olduğu kimi futbolda da dayanıqlı inkişafa nail olmaq üçün hədəflərin düzgün müəyyən edilməsi vacibdir. Bizim sponsorluğumuz uzun müddət üçün planlaşdırılıb. İlkin mərhələdə 4,5 illik müqavilə imzalamışıq. Biz mərhələli inkişaf yolunu seçmişik. Birinci mərhələdə üstünlüyü infrastrukturun yaxşılaşdırılması, akademiya və uşaq futbolunun inkişafına vermişik.

Ötən futbol mövsümü ərzində klubun peşəkarlaşması yolunda müəyyən işləri həyata keçirdik. Klubun ümumi infrastrukturu və akademiyanın şəraiti yaxşılaşdırıldı, idarəetmə strukturu təkmilləşdirildi, bölgəmizdən daha çox sayda uşağın futbola qoşulması üçün imkanlar yaradıldı.

Hazırda klubun əsas maliyyəsi dövlət proqramı və baş sponsor tərəfindən qarşılanır. Ötən mövsüm kiçik də olsa sponsorluq və tərəfdaşlıq razılaşmaları imzaladıq. Belə əməkdaşlıqların sayını çoxaltmaq istəyirik. Oyunlara azarkeşlərin biletlə girişi təmin edilib, stadion ərazisində klubun su-qida satış məntəqəsi və fanşop fəaliyyət göstərir. Ümumi gəlir payı klubun büdcəsinin çox az faizi təşkil etsə də, belə gəlir kanallarının sayını artırmaq istəyirik. Dayanıqlı inkişaf üçün dayanıqlı maliyyənin və çoxşaxəli gəlir kanallarının olması önəmlidir.

İctimaiyyət üçün nəticənin önəmli olduğunu anlayıram. Yuxarıda qeyd etdiyim kimi, biz mərhələli inkişaf yolunu seçmişik. Qarşımıza qoyduğumuz hədəflərə çatdıqca yaxşı nəticələrin gələcəyinə və tovuzlu azarkeşləri sevindirəcəyimizə inanıram. "Turan" azarkeşləri qələbələrə layiqdirlər!

# İNFRASTRUKTUR LAYİHƏLƏRİ

# İNFRASTRUKTUR LAYİHƏLƏRİ





## Yeni akademiya binası

İnfrastrukturun ideal vəziyyətə gətirilməsi üçün baş sponsor "HUNER Group"un maddi dəstəyi ilə stadion ərazisində iki mərtəbəli yeni bina inşa olunur. "Turan Tovuz" Futbol Akademiyasının ixtiyarına veriləcək binada hər cür şəraitlə təmin olunan yataq otaqları, akademiya məşqçiləri üçün iş və nəzəri məşğələ otaqları, konfrans və fitnes zalları, tibb və digər zəruri otaqlar yer alacaq. Binada 60 futbolçunun yerləşdirilməsi nəzərdə tutulub.

| Sahəsi | Otaq sayı | Yerləşdirilməsi nəzərdə tutulan uşaq sayı |
| --- | --- | --- |
| 500m² | 30 | 60+ |

# İNFRASTRUKTUR LAYİHƏLƏRİ







## Skayboks və VİP

Əsas tribunada media sektor, qonaq komanda üçün skayboks və VİP loja əsaslı təmir olunub. Qonaq komanda üçün nəzərdə tutulan skayboks kiçik və oyunu izləmək üçün əlverişsiz olduğundan ön tərəfi bütövlükdə şüşəbəndlə örtülüb. Media sektorun tutumu artırılıb və qonaq komandaların nümayəndələri üçün skayboksun qarşısında VİP sektor hazırlanıb. Skaybokslar bütün zəruri avadanlıqlar və qonaqların oyunu rahat şəkildə izləyə bilməsi üçün bütün şəraitlə təmin olunub.

| Skayboks 1 | |
|---|---|
| Daxildə oturacaq sayı | 12 |
| Çöldə oturacaq sayı | 21 |
| **Qonaq skayboks** | |
| Daxildə oturacaq sayı | 9 |
| Çöldə oturacaq sayı | 6 |
| **Media sektor** | |
| Oturacaq sayı | 15 |
| İş masası ilə oturacaq sayı | 15 |

# İNFRASTRUKTUR LAYİHƏLƏRİ







## Projektorlar

AFFA Lisenziyalaşdırma Qrupunun və Peşəkar Futbol Liqasının tələbinə uyğun olaraq, stadion ərazisində beynəlxalq standartlara cavab verən projektorlar quraşdırılıb.

Bununla yanaşı, elektrik enerjisinin tam güclə təmin olunması üçün generator və tənzimləyici qurğunun gücünün artırılması ilə bağlı işlər həyata keçirilib.





# İNFRASTRUKTUR LAYİHƏLƏRİ

## Çəkiliş meydançası

Tovuz şəhər stadionunda çəkiliş üçün əlverişli şərait olmadığından "HUNER Group"un dəstəyi ilə 2023-cü ilin aprel ayında stadionda qarşı tribunada bütün standartlara cavab verən 3 ədəd (1-i ikimərtəbəli və şərhçi otağı olmaqla) çəkiliş kabinaları quraşdırılıb.



## Tablo

"Huner Group"un dəstəyi ilə Tovuz şəhər stadionunda müasir standartlara cavab verən elektron tablo quraşdırılaraq istifadəyə verilib. UEFA standartlarına cavab vermək üçün əsas şərtlərdən biri yerinə yetirilib.




## Yeni baza

"Turan Tovuz" futbol klubunda şəraitin təkmilləşdirilməsi üçün yeni baza və standartlara uyğun məşq meydançalarının salınması üçün torpaq sahəsi alınıb. 2024-cü ilin may ayından layihə ilə bağlı əməli işlərə başlanılıb

| | |
|---|---|
| **Sahəsi** | **5 Ha** |
| **Bina sayı** | **2 ədəd 2 mərtəbəli** |
| **Otaq sayı** | **Dəqiqləşməyib** |
| **Meydança sayı** | **4 ədəd** |
| **Yerləşəcək futbolçu sayı** | **Böyük bina: 100-120 nəfər**<br>**İkinci bina, akademiya üçün: 60-70 nəfərlik** |



# AKADEMİYA

# AKADEMİYA







"Turan Tovuz" Futbol Akademiyasına ildə 2 dəfə olmaqla seçimlər baş tutur. Ölkənin bütün bölgələrindən seçimlərdə iştirak edən futbolçular 20-dən çox məşqçinin iştirakı ilə şəffaf və peşəkar qaydalara uyğun olaraq Akademiyaya qəbul olunur.

Akademiyaya qəbul olunan futbolçuların dil bilgilərini artırmaq məqsədilə ingilis dili müəllimi təmin olunub və həftədə 3 dəfə olmaqla, dərslər keçirilir. Akademiya ixtisaslı tibbi personal ilə təmin olunub.

Məşqçilərin daim inkişaf etmələri üçün kateqoriyalarını yeniləməyi və ya bir üst kateqoriyaya yiyələnmələrini hədəfləyirik. Eyni zamanda beynəlxalq təcrübələrini artırmaq məqsədilə Türkiyədə "Fenerbahçe" və "Gençlerbirliyi", Gürcüstanda isə "Dinamo Tbilisi" Futbol Akademiyasında, həmçinin Niderlandda "PSV", "Utrext"və  "Feyenoord" klublarının həm əsas, həm də akademiyasında bir neçə günlük təcrübə keçmələri təmin olunub.

İstedadlı uşaqların aşkar edilməsi və inkişaf edərək akademiya səviyyəsinə qalxması üçün "Hünər" FK yaradılıb və  U-9, U-10, U-11, U-12, U-13, U-14 komandalarının rəsmi yarışlarda iştirakı təmin olunub.

# AKADEMİYA

## Akademiyada kateqoriyalar üzrə məşqçi sayı:

| 2022-2023 | |
|---|---|
| A | 3 |
| B | 1 |
| C | 10 |
| D | 0 |

| 2023-2024 | |
|---|---|
| A | 5 |
| B | 2 |
| C | 13 |
| D | 1 |



## "Turan Tovuz" FA 2023-2024 mövsümü üzrə komandaların və futbolçuların sayı:

| Komanda | Futbolçu sayı |
|---|---|
| U-9 | 17 |
| U-10 | 17 |
| U-11 | 14 |
| U-12 | 14 |
| U-13 | 20 |
| U-14 | 26 |
| U-14 Qızlar | 20 |
| U-15 | 25 |
| U-16 | 23 |
| U-17 | 19 |
| U-19 | 28 |
| Cəmi: | 223 |

Qeyd: Lisenziya alan futbolçular nəzərə alınıb.





# AKADEMİYA

## U-15-dən U-19-a dək olan nəticələr:

U-14 komandası Qərb zonasını uğurla adlayaraq Pley-Off mərhələsinə vəsiqə qazanıb

### U-19

| YER | KOMANDA | O | Q | H | M | VQ | BQ | T/F | XAL |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Sabah FK** | 30 | 24 | 3 | 3 | 116 | 25 | 91 | 75 |
| 2 | **Səbail FK** | 30 | 20 | 5 | 5 | 74 | 28 | 46 | 65 |
| 3 | **Neftçi PFK** | 30 | 20 | 4 | 6 | 83 | 27 | 56 | 64 |
| 4 | **Qəbələ İK** | 30 | 20 | 3 | 7 | 83 | 41 | 42 | 63 |
| 5 | **Qarabağ FK** | 30 | 14 | 3 | 13 | 80 | 64 | 16 | 45 |
| 6 | **Zirə PFK** | 30 | 13 | 5 | 12 | 55 | 50 | 5 | 44 |
| 7 | **Sumqayıt FK** | 30 | 13 | 3 | 14 | 50 | 61 | -11 | 42 |
| 8 | **Turan Tovuz FK** | 30 | 10 | 3 | 17 | 63 | 72 | -9 | 33 |
| 9 | **Araz Naxçıvan PFK** | 30 | 6 | 4 | 20 | 37 | 74 | -37 | 22 |
| 10 | **Kəpəz PFK** | 30 | 5 | 4 | 21 | 26 | 102 | -76 | 19 |
| 11 | **İCBFA** | 30 | 1 | 1 | 28 | 15 | 138 | -123 | 4 |









# AKADEMİYA

## U-17

| YER | KOMANDA | O | Q | H | M | VQ | BQ | T/F | XAL |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Sumqayıt FK** | 39 | 30 | 7 | 2 | 135 | 26 | 109 | 97 |
| 2 | **Sabah FK** | 39 | 29 | 7 | 3 | 146 | 36 | 110 | 94 |
| 3 | **Neftçi PFK** | 39 | 28 | 4 | 7 | 119 | 47 | 72 | 88 |
| 4 | **Qarabağ FK** | 39 | 21 | 6 | 12 | 94 | 50 | 44 | 69 |
| 5 | **EFA** | 39 | 18 | 11 | 10 | 92 | 48 | 44 | 65 |
| 6 | **Qəbələ İK** | 39 | 18 | 9 | 12 | 76 | 49 | 27 | 63 |
| 7 | **Turan Tovuz FK** | 39 | 18 | 6 | 15 | 71 | 48 | 23 | 60 |
| 8 | **Neftçi İK İB** | 39 | 14 | 11 | 14 | 65 | 57 | 8 | 53 |
| 9 | **Səbail FK** | 39 | 14 | 5 | 20 | 71 | 74 | -3 | 47 |
| 10 | **Kəpəz PFK** | 39 | 11 | 9 | 19 | 68 | 74 | -6 | 42 |
| 11 | **Zirə PFK** | 39 | 11 | 7 | 21 | 71 | 72 | -1 | 40 |
| 12 | **Araz Naxçıvan PFK** | 39 | 9 | 10 | 20 | 40 | 80 | -40 | 37 |
| 13 | **UFA** | 39 | 5 | 0 | 34 | 39 | 197 | -158 | 15 |
| 14 | **İCBFA** | 39 | 1 | 0 | 38 | 19 | 248 | -229 | 3 |



**Bombardirlər:**Toğrul Tapdıqlı (Sumqayıt FK) - 40 qol, **İman Nəcəfov (Turan Tovuz FK) – 27**, Röyal Fərzullazadə (Neftçi PFK) – 26.







# AKADEMİYA

## U-16

| YER | KOMANDA | O | Q | H | M | VQ | BQ | T/F | XAL |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Zirə PFK** | 36 | 28 | 4 | 4 | 145 | 40 | 105 | 88 |
| 2 | **Neftçi PFK** | 36 | 27 | 7 | 2 | 128 | 49 | 79 | 88 |
| 3 | **Sabah FK** | 36 | 21 | 6 | 9 | 107 | 56 | 51 | 69 |
| 4 | **Qarabağ FK** | 36 | 19 | 9 | 8 | 145 | 57 | 88 | 66 |
| 5 | **Sumqayıt FK** | 36 | 19 | 7 | 10 | 94 | 63 | 31 | 64 |
| 6 | **Turan Tovuz FK** | 36 | 18 | 6 | 12 | 89 | 63 | 26 | 60 |
| 7 | **Səbail FK** | 36 | 16 | 6 | 14 | 74 | 64 | 10 | 54 |
| 8 | **Qəbələ İK** | 36 | 15 | 7 | 14 | 80 | 73 | 7 | 52 |
| 9 | **EFA** | 36 | 13 | 6 | 17 | 87 | 70 | 17 | 45 |
| 10 | **Atletiko Baku FK** | 36 | 10 | 7 | 19 | 96 | 88 | 8 | 37 |
| 11 | **Kəpəz PFK** | 36 | 7 | 1 | 28 | 42 | 132 | -90 | 22 |
| 12 | **Masallı PFK** | 36 | 3 | 2 | 31 | 23 | 167 | -144 | 11 |
| 13 | **İCBFA** | 36 | 3 | 2 | 31 | 47 | 235 | -188 | 11 |









# AKADEMİYA

## U-15

| YER | KOMANDA | O | Q | H | M | VQ | BQ | T/F | XAL |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Qarabağ FK** | 28 | 26 | 0 | 2 | 169 | 26 | 143 | 78 |
| 2 | **Sabah FK** | 28 | 24 | 2 | 2 | 144 | 21 | 123 | 74 |
| 3 | **Sumqayıt FK** | 28 | 21 | 4 | 3 | 90 | 32 | 58 | 67 |
| 4 | **Neftçi PFK** | 28 | 19 | 2 | 7 | 109 | 35 | 74 | 59 |
| 5 | **Zirə PFK** | 28 | 18 | 1 | 9 | 85 | 27 | 58 | 55 |
| 6 | **Qəbələ İK** | 28 | 17 | 2 | 9 | 82 | 43 | 39 | 53 |
| 7 | **Turan Tovuz FK** | 28 | 16 | 4 | 8 | 71 | 47 | 24 | 52 |
| 8 | **Səbail FK** | 28 | 12 | 2 | 14 | 73 | 46 | 27 | 38 |
| 9 | **EFA** | 28 | 10 | 6 | 12 | 52 | 54 | -2 | 36 |
| 10 | **Lion FK** | 28 | 10 | 1 | 17 | 45 | 85 | -40 | 31 |
| 11 | **Kəpəz PFK** | 28 | 8 | 4 | 16 | 48 | 77 | -29 | 28 |
| 12 | **ASTA FK** | 28 | 6 | 2 | 20 | 32 | 98 | -66 | 20 |
| 13 | **İCBFA** | 28 | 3 | 3 | 22 | 16 | 117 | -101 | 12 |
| 14 | **Araz Saatlı FK** | 28 | 2 | 0 | 26 | 24 | 162 | -138 | 6 |
| 15 | **Ulduz Mingəçevir** | 28 | 1 | 1 | 26 | 10 | 180 | -170 | 4 |



**Bombardirlər:** Samir Şərifov (Sabah FK) - 34, Əli Cəlilzadə (Sumqayıt FK) - 34,
Nicat Kərimov (Sabah FK) - 31, Əli Başirov (Qarabağ FK) - 29 qol.








# AKADEMİYA

## Akademiyadan əsas və əvəzedici komandalara dəvət alan futbolçular

### Əvəzedici komandada meydana çıxanlar:

| | ADI, SOYADI | TƏVƏLLÜDÜ |
|---|---|---|
| 1 | Rəşad Əliyev | 14.06.2004 |
| 2. | Nihat Qurbanzadə | 28.11.2004 |
| 3 | Fərid Cəfərov | 17.04.2005 |
| 4 | Asad Asadov | 18.04.2005 |
| 5 | Arif İsrafilbəyov | 19.04.2005 |
| 6 | Cavid Qasımov | 30.08.2005 |
| 7 | İsmayıl İsmayılov | 12.09.2005 |
| 8 | Tahir Tağıyev | 17.02.2006 |
| 9 | Ümüd Cəfərov | 05.03.2006 |
| 10 | Məhəmməd Abbasov | 31.05.2006 |
| 11 | Cəmil Məmmədov | 04.09.2006 |
| 12 | Dinamin Bağırov | 08.09.2006 |
| 13 | Hüseyn Bayramzadə | 25.12.2006 |
| 14 | Ayxan Abbaszadə | 21.01.2007 |
| 15 | Taleh Həsənov | 08.08.2005 |

### Əsas komandada meydana çıxanlar:

| | ADI, SOYADI | TƏVƏLLÜDÜ |
|---|---|---|
| 1 | Sadiq Şəfiyev | 13.10.2005 |
| 2. | Hüseyn Hüseynov | 25.07.2006 |
| 3 | Cavid Qasımov | 30.08.2005 |
| 4 | Məzahir Məmmədadə | 12.08.2002 |
| 5 | Sənan Aslanov | 20.08.2003 |







# AKADEMİYA

## Milli komandaya dəvət alan futbolçular



**Rəşad Əliyev**
U-20



**Tunar Muradov**
U-19



**Cavid Qasımov**
U-19



**Sadiq Şəfiyev**
U-19



**Hüseyn Hüseynov**
U-18



**Dinamin Bağırov**
U-18



**Ayxan Abbaszadə**
U-17



**Hüseyn Atayev**
U-16

# AKADEMİYA

## YARIŞLARDA İŞTİRAK

Akademiyamızın U-9, U-10, U-11, U-12, U-13 və U-14 komandaları oyunlarını AFFA tərəfindən mərkəzləşdirilmiş qaydada hər region üzrə seçilən mərkəz şəhərdə keçirir. Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy regionunun mərkəzi Tovuz şəhəri seçilib. Oyunlar Tovuz Olimpiya İdman Kompleksində baş tutur.

U-15, U-16, U-17, U-19 komandaları AFFA-nın təşkil etdiyi liqalarda iştirak edirlər. Burada tələblər Premyer Liqa komandalarının hər birinin bu yaş qruplarının yarışlarda iştirakının təminidir. Bu yaş kateqoriyaları ümumrespublika yarışlarıdır.





# ƏSAS KOMANDA

# ƏSAS KOMANDA

9 illik fasilədən sonra "Turan Tovuz" futbol klubu 2022/2023-cü illər mövsümündə Premyer Liqaya vəsiqə qazanıb. 2023-2024-cü illər mövsümündə "Turan Tovuz"un heyətində 31 futbolçu meydana çıxıb. Bunlardan 11-i legioner, 19 nəfəri isə yerli futbolçu olub. Komandanın heyətində Oto Con bütün oyunlarda meydana çıxmaqla yanaşı, ən çox qol vuran (10 qol), həmçinin ən çox qol ötürməsi (5) edən futbolçu olub. 3 nəfər 21 yaşlılardan ibarət Azərbaycan milli komandasına, 1 nəfər Panama, 1 nəfər Toqo, 1 nəfər isə Moldova millisinə dəvət alıb. Akademiyadan 5 futbolçu əsas komandanın heyətində yer alıb.



# ƏSAS KOMANDA

| № | Adı / Soyadı | Mövqe | Vətəndaşlıq |
|---|---|---|---|
| 1 | Tərlan Əhmədli | Qapıçı | Azərbaycan |
| 2 | Sertan Taşkın | Müdafiəçi | Azərbaycan |
| 3 | Tərlan Quliyev | Müdafiəçi | Azərbaycan |
| 4 | Şəhriyar Əliyev | Müdafiəçi | Azərbaycan |
| 5 | Miller Roderik | Müdafiəçi | Panama |
| 6 | Qonçalves Bruno | Müdafiəçi | Braziliya |
| 7 | Paçu Luis | Hücumçu | Braziliya |
| 8 | Marakvelidze Piruzi | Yarımmüdafiəçi | Gürcüstan |
| 9 | Pusi Belaydi | Hücumçu | Albaniya |
| 10 | Xəyal Nəcəfov | Yarımmüdafiəçi | Azərbaycan |
| 11 | Ayxan Hüseynov | Yarımmüdafiəçi | Rusiya |
| 13 | Aydın Bayramov | Qapıçı | Azərbaycan |
| 13 | Slavik Alxasov | Müdafiəçi | Azərbaycan |
| 14 | Vüsal Məsimov | Müdafiəçi | Azərbaycan |
| 15 | Hakman Emmanuel | Müdafiəçi | Toqo |
| 18 | Budaq Nəsirov | Yarımmüdafiəçi | Azərbaycan |
| 23 | Serrano Alexandro | Yarımmüdafiəçi | İspaniya |
| 25 | Denis Marandiçi | Müdafiəçi | Moldova |
| 39 | Sadiq Quliyev | Müdafiəçi | Azərbaycan |
| 57 | Cavid Qasımov | Yarımmüdafiəçi | Azərbaycan |
| 60 | Səbayil Bağırov | Müdafiəçi | Azərbaycan |
| 70 | Məzahir Məmmədzadə | Yarımmüdafiəçi | Azərbaycan |
| 77 | Fərid Nəbiyev | Yarımmüdafiəçi | Azərbaycan |
| 79 | Martin Petkov | Hücumçu | Bolqarıstan |
| 80 | Con Otto | Hücumçu | Nigeriya |
| 85 | Kamal Bayramov | Qapıçı | Azərbaycan |
| 88 | Faiq Hacıyev | Müdafiəçi | Azərbaycan |
| 97 | Sadiq Şəfiyev | Müdafiəçi | Azərbaycan |
| 99 | Veysəl Rzayev | Yarımmüdafiəçi | Azərbaycan |

# ƏSAS KOMANDA

## Məşqçi heyəti



**Ayxan Abbasov**
Baş məşqçi



**Elnur Çodarov**
Köməkçi məşqçi



**Xəyal Qarayev**
Köməkçi məşqçi



**Kamil Qafarov**
Qapıçılar üzrə məşqçi

## Texniki heyət

| № | Adı / Soyadı | Vəzifəsi |
|---|---|---|
| 1 | Alberto Santamariya Qarsiya | Fiziki hazırlıq üzrə |
| 2 | Ceyhun Rzayev | Analitik |
| 3 | İmran Həsənov | Komandanın meneceri |
| 4 | Mahir Ələsgərov | Həkim |
| 5 | Rövşən Məmmədov | Fizioterapevt |
| 6 | Elvin Musayev | Fizioterapevt |

# ƏSAS KOMANDA

## Ən çox qol vuran futbolçu




| № | Qolun müəllifi | Qol |
|---|---|---|
| 1 | Otto Con | 10 |
| 2 | Aleks Souza | 6 |
| 3 | Fərid Nəbiyev | 6 |
| 4 | Ayxan Hüseynov | 5 |
| 5 | Belaydi Pusi | 5 |
| 6 | Luis Paçu | 5 |
| 7 | Roderik Miller | 4 |
| 8 | Martin Petkov | 3 |
| 9 | Bruno Qonsalveş | 2 |
| 10 | Emmanuel Hakman | 2 |

**"Turan Tovuz" futbol klubu 2023/2024-cü illər mövsümündə keçirilən 36 oyunda vurulan 53 qol ilə ikinci ən məhsuldar komanda olub.**

# ƏSAS KOMANDA




*Ən çox ötürmə edən*

**5**

ÖTÜRMƏ

**OTO** CON




*Ən çox ötürmə edən*

**5**

ÖTÜRMƏ

**AYXAN** HÜSEYNOV




*Premyer Liqada qol ötürməsi olan 2 qapıçıdan biri*

**2**

ÖTÜRMƏ

**TƏRLAN** ƏHMƏDLİ




*Ən çox oyun keçirən futbolçu*

**36**

OYUN

**OTO** CON

# ƏSAS KOMANDA

**Misli Premyer Liqası**
2023/2024-cü illər

| | Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | **Qarabağ** | 36 | 26 | 5 | 5 | 97-37 | 83 |
| 2 | **Zirə** | 36 | 16 | 10 | 10 | 33-22 | 58 |
| 3 | **Sabah** | 36 | 17 | 7 | 12 | 50-40 | 58 |
| 4 | **Sumqayıt** | 36 | 15 | 12 | 9 | 37-38 | 57 |
| 5 | **Neftçi** | 36 | 16 | 8 | 12 | 51-40 | 56 |
| 6 | **Turan Tovuz** | 36 | 13 | 9 | 14 | 53-53 | 48 |
| 7 | **Səbail** | 36 | 11 | 9 | 16 | 50-60 | 42 |
| 8 | **Araz-Naxçıvan** | 36 | 9 | 9 | 18 | 31-50 | 36 |
| 9 | **Kəpəz** | 36 | 9 | 8 | 19 | 39-67 | 35 |
| 10 | **Qəbələ** | 36 | 7 | 5 | 24 | 30-64 | 26 |

# ƏSAS KOMANDA

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 | 32 | 33 | 34 | 35 | 36 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Araz-Naxçıvan | 3:0 | | | | | | | | | | | | | | | | | 3:1 | | | | | | | | 2:0 | | | | | | | | 1:0 | | |
| Qarabağ | | 0:3 | | | | | | | | 2:2 | | | | | | | | | | | | | | | | | 1:3 | | | | | | | | 3:4 | |
| Kəpəz | | | 2:0 | | | | | | | | 4:0 | | | | | | | | 1:2 | | | | | | | | | | | | | | | | | 1:0 |
| Səbail | | | | 1:3 | | | | | | | | 1:2 | | | | | | | | 3:1 | | | | | | | | 1:1 | | | | | | | | |
| Sabah | | | | | 3:0 | | | | | | | | 2:3 | | | | | | | | 1:1 | | | | | | | | 2:0 | | | | | | | |
| Qəbələ | | | | | | 2:2 | | | | | | | | 0:4 | | | | | | | | 2:1 | | | | | | | | 2:1 | | | | | | |
| Sumqayıt | | | | | | | 0:0 | | | | | | | | 2:2 | | | | | | | | 0:0 | | | | | | | | 1:4 | | | | | |
| Neftçi | | | | | | | | 0:1 | | | | | | | | 2:3 | | | | | | | | 1:1 | | | | | | | | 0:3 | | | | |
| Zirə | | | | | | | | | 1:2 | | | | | | | | 1:0 | | | | | | | | 1:1 | | | | | | | | 1:2 | | | |



# İDARƏETMƏ

# İDARƏETMƏ

“Turan Tovuz” futbol klubunda 2023-2024-cü illər mövsümündə 3 şöbə yaradılıb. Futbolda Sosial Məsuliyyət, Lisenziyalaşdırma və Logistika şöbələrinə yeni əməkdaşlar cəlb olunub. Lisenziyalaşdırma şöbəsinin əhatəsi genişlənib və əməkdaşlardan biri lisenziyalaşdırma menecerləri üçün təşkil olunan imtahanda 3-cü ən yaxşı nəticəni göstərib.

Beynəlxalq əlaqələri gücləndirmək məqsədilə Türkiyənin məşhur siması, aparıcı, eyni zamanda iş adamı Acun Ilıcalı "Turan Tovuz"un baş sponsoru “Huner Group”un qonağı olub. A. Ilıcalıya şirkət haqda ətraflı məlumat verilib, daha sonra işgüzar görüş keçirilib.
Görüşdə "Turan Tovuz"la Acun Ilıcalının sahibi olduğu “Hull City” klubu ilə mümkün əməkdaşlıq perspektivləri müzakirə olunub. İlkin razılığa əsasən, "Turan Tovuz"un əməkdaşları, məşqçi və futbolçu heyəti “Hull City”nin iş prinsiplərini öyrənmək və təcrübələrini artırmaq üçün İngiltərədə klubun düşərgəsində təcrübə keçəcəklər.

“Turan Tovuz”un nümayəndələri beynəlxalq əlaqələri gücləndirmək və təcrübələrin mənimsənilməsi üçün Niderlanda səfər ediblər. Səfər zamanı “PSV”, “Feyenoord” və “Utrext” kimi tanınmış klubların düşərgəsində idarəetmə, akademiya, infrastruktur və digər yeniliklərlə bağlı görüşlər keçiriblər.








# İDARƏETMƏ


İDARƏ HEYƏTİNİN SƏDRİ
MÜŞAVİR
MÜŞAVİR
İDMAN ƏMƏLİYYATLARI ÜZRƏ DİREKTOR
UŞAQ FUTBOLUNUN İNKİŞAFI ÜZRƏ DİREKTOR
İNFRASTRUKTUR VƏ MALİYYƏ ÜZRƏ DİREKTOR
İDARƏ HEYƏTİNİN SƏDR MÜAVİNİ
ƏSAS KOMANDA
ƏVƏZEDİCİ KOMANDA
LİSENZİYA
MEDİA VƏ MARKETİNQ
MƏTBUAT VƏ PR
MARKETİNQ VƏ SPONSORLUQ
AZARKEŞLƏRLƏ İŞ
TƏDBİRLƏRİN TƏŞKİLİ DEPARTAMENTİ
AKADEMİYA
BÜTÜN YAŞ QRUPLARI
AKADEMİYA TİBB DEPARTAMENTİ
FUTBOLUN KÜTLƏVİLƏŞDİ-RİLMƏSİ
SELEKSİYA ŞÖBƏSİ
MALİYYƏ VƏ HR DEPARTAMENTİ
MÜHASİBATLIQ
MALİYYƏ
TƏCHİZATÇI
İNFRASTRUKTUR DEPARTAMENTİ
ƏMLAK VƏ İDMAN QURĞULARI
TƏMİR TİKİNTİ
TƏHLÜKƏSİZLİK DEPARTAMENTİ
MÜHAVİZƏ ŞÖBƏSİ
İT ŞÖBƏSİ
NƏQLİYYAT DEPARTAMENTİ

# İCTİMAİYYƏT









## Fan-şop və kafeteriya

İaşə xidmətinin istifadəsi UEFA-nın Elit stadionlar üçün tətbiq etdiyi tələblərdən biri olduğundan stadionumuzda bu xidməti həyata keçirmək üçün fan-şop və kafeteriyanın tikintisi başa çatdırılaraq, azarkeşlərin istifadəsinə verilib. İaşə xidməti oyunlar zamanı azarkeşləri keyfiyyətli qida ilə təmin edir. Yeni tərəfdaşımız olan "İnci Group of Companies" tərəfindən oyunlardan sonra stimullaşdırıcı lotoreya təşkil olunur ki, bu da tribunalara toplaşan minlərlə azarkeşin marağına səbəb olur.

Regionun qabaqçıl su şirkətlərindən olan "Tovuz Su" ilə bağlanan müqaviləyə əsasən, şirkət əsas komandanı içməli su ilə təmin edir.

# AZARKEŞ

## "Turan Tovuz" ev oyunları tamaşaçı sayı

| | OYUNUN ADI | SAYI |
|---|---|---|
| 1 | "Turan Tovuz" – "Səbail" | 4300 |
| 2 | "Turan Tovuz" – "Qəbələ" | 4000 |
| 3 | "Turan Tovuz" – "Neftçi" | 5000 |
| 4 | "Turan Tovuz" – "Qarabağ" | 6000 |
| 5 | "Turan Tovuz" – "Kəpəz" | 5000 |
| 6 | "Turan Tovuz" – "Sabah" | 5000 |
| 7 | "Turan Tovuz" – "Sumqayıt" | 4000 |
| 8 | "Turan Tovuz" - "Zirə" | 3000 |
| 9 | "Turan Tovuz" – "Araz-Naxçıvan" | 2600 |
| 10 | "Turan Tovuz" – "Səbail" | 3000 |
| 11 | "Turan Tovuz" – "Qəbələ" | 4500 |
| 12 | "Turan Tovuz" – "Neftçi" | 4500 |
| 13 | "Turan Tovuz" – "Araz-Naxçıvan" | 3500 |
| 14 | "Turan Tovuz" – "Qarabağ" | 6000 |
| 15 | "Turan Tovuz" – "Sabah" | 3000 |
| 16 | "Turan Tovuz" – "Sumqayıt" | 4000 |
| 17 | "Turan Tovuz" – "Zirə" | 3000 |
| 18 | "Turan Tovuz" – "Kəpəz" | 3500 |
| | | **73900** |










Komandanın Premyer Liqada 18 ev oyununu ümumilikdə 73.900 tamasaçı izləyib (ortalama göstərici sayı 4106 nəfər).

TURAN

TOVUZ

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR!